## DAĞLAR

**1. Alagöz dağı – Araqats.**

Qərbi Azərbaycan ərazisində ən hündür dağ. Şərqdən qərbə doğru 40 km, şimaldan cənuba doğru 35 km uzanan dağın hündürlüyü 4090 m-dir.

**2. Əjdaha dağı – Ajdahak.**

Göyçə silsiləsində dağ. Qərbi Azərbaycanda Alagöz və Qapıcıq dağlarından sonra üçüncü ən hündür dağ. Hündürlüyü 3597,3 m-dir.

**3. Ağmanqan – Geğam.**

Göyçə mahalının Qaranlıq rayonuu ərazisində dağ silsiləsi. Orta hündürlüyü 2500 m.

**4. Dərələyəz dağ silsiləsi – Vayotsdzor.**

Dərələyəz mahalında dağ silsiləsi, uzunluğu 70 km, ən yüksək zirvəsi 3120 m-dir.

**5. Basarkeçər dağ silsiləsi – Vardenis.**

Göyçə mahalında dağ silsiləsi, uzunluğu 35 km, ən hündür zirvəsi 3522 m-dir.

**6. Dəvəboynu – Uxtasar.**

Zəngəzur mahalının Qarakilsə rayonu ərazisində dağ. Ən hündür zirvəsi 3594 m-dir. Ermənilər dağın adını sətri tərcümə etmişlər, ermənicədə “uxt” – dəvə, “sar” – dağ deməkdir.

**7. Qarnıyarıq dağı – Ara ler.**

Qırxbulaq mahalı (Ellər rayonu) ərazisində, Zəngi və Abaransu çayları arasında dağ. Hündürlüyü 2577 m-dir.

**8. Ağçala dağı – Açkasar.**

Loru mahalında, Qaraxaç yaylaqlarında dağ. Hündürlüyü 3196 m-dir. 1980-ci illərdən adı ermənilәşdirilərək Açkasar qoyulmuşdur.

**9. Tej-Əhməd//Tej – Tej-ler.**

Pəmbək mahalı ərazisində, Pəmbək silsiləsində dağ. Hündürlüyü 3101 m-dir.

**10. Гутан – Гутанасар.**

Qırxbulaq mahalında, Göyçə silsiləsində dağ. Fontan kəndindən 2,5 km cənubda yerləşir.

**11. Qarqar – Tsxuk.**

Azərbaycan və Ermənistan sərhədində yerləşir, hündürlüyü 3584 m-dir.

**12. Ağdağ – Spitakasar.**

Qırxbulaq mahalı ilə Göyçə mahalı arasında, Göyçə silsiləsində dağ. Hündürlüyü 3560 m-dir.